Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

**Azərbaycan ərazilərini zəbt edərkən Ermənistanın kifayət qədər cinayət hallarına yol verməsinə dair ötən müddət ərzində kifayət qədər faktlar toplanıb. Eləcə də ərazilərimizi işğal altında saxladığı müddət ərzində Ermənistan ölkəmizə qarşı müxtəlif səpkili müharibə cinayətlərini davam etdirib.**

# Müharibə cinayətlərinə görə Ermənistan beynəlxalq məhkəmələrdə Azərbaycana cavab verməli olacaq

O da maraqlı məqamdır ki, Azərbaycan işğala son qoysa da, Ermənistanın müharibə cinayətlərini tam aradan qaldırmaq hələ də mümkün olmayıb.

**Ermənistan yenə beynəlxalq hüquqa laqeyd münasibət nümayiş etdirir**

Vətən müharibəsindən sonra Ermənistanın davam edən ən böyük cinayəti, şübhəsiz ki, minalanmış ərazilərin xəritələrini hələ da tam şəkildə Azərbaycana təhvil verməməsidir. Bununla Ermənistan həm də yenidən beynəlxalq hüquqa laqeyd münasibətini nümayiş etdirir. Halbuki, beynəlxalq hüquqda bu məsələ ilə bağlı kifayət qədər hüquqi aktlar mövcuddur. Buna misal kimi "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını, 10 oktyabr 1980-ci il "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanın İkinci Protokolunu, 1999-cu il "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" BMT Konvensiyanı göstərmək olar.



Azərbaycan ərazilərini işğal altında saxladığı vaxt həmin yerlərə Ermənistan silahlı qüvvələri tərəfindən çoxsaylı mina döşənib, xeyli sayda partlamamış mərmi basdırılıb. Çoxsaylı tələblərə baxmayaraq, Ermənistan postmüharibə dövründə həmin ərazilərin bütün xəritələrini ölkəmizə verməkdən imtina edir, bununla da yuxarıda qeyd edilən beynəlxalq hüquqi aktların tələblərini kobud şəkildə pozur. Minalanmış ərazilərin xəritəsini Azərbaycana təqdim etməkdən imtina etməklə Ermənistan ötən ilin 10 noyabrında imzalanan və sülhə xidmət edən üçtərəfli bəyanata da laqeyd yanaşma nümayiş etdirir və bu, beynəlxalq ekspertlər səviyyəsində də məhz qeyd edilən kontekstdə qiymətləndirilir.

Bundan başqa, Ermənistanın ölkəmizə qarşı törətdiyi digər müharibə cinayəti Azərbaycan ərazilərində hələ də silahlı terrorçular saxlamasıdır. Belə ki, 2020-ci il 10 noyabr bəyanatına əsasən, Ermənistan Azərbaycan ərazisindən bütün silahlı qüvvələrini çıxarmalıdır. Çıxarılmayan silahlı qüvvələr artıq terrorçulardır və Azərbaycanın güc strukturları üçün qanuni hədəfdir. Xatırladaq ki, Azərbaycan ərazisində Rusiya sülhməramlılarının məsuliyyət zonasında Ermənistanın silahlı qüvvələrinin təmsilçiləri olan terrorçular mövcuddur. Revanşist və təhlükəli fikirlərlə öz əhalisini zəhərləmək, Azərbaycana qarşı mənfi rəy formalaşdırmaqla da Ermənistan regionda sülhə zərbə vurur. Sülhə zərbə cəhdi elə ən böyük müharibə cinayətlərindən biridir. Azərbaycana qarşı bu və digər müharibə cinayətlərini davam etdirən Ermənistan regionda qalıcı sülhün mövcudluğuna zərbə vurmaqla özünü çıxılmaz vəziyyətə salır. Çünki Azərbaycanla münasibətlərini normallaşdırmadan Ermənistanın inkişafı, ümumiyyətlə bir dövlət olaraq varlığını davam etdirməsi mümkün deyil.

**İrqi ayrıseçkilik siyasəti İrəvanı dalana dirəyir...**

İşğal vaxtı yüz minlərlə insanı öz doğma yurdundan didərgin salması, minlərlə insanı qətlə yetirməsi də Ermənistanın törətdiyi dəhşətli müharibə cinayətləridir. Şübhəsiz ki, bura işğal zamanı Azərbaycan ərazilərində törədilən dağıntılar, fauna və floraya vurulan zərər də daxildir. Lakin bu cinyaətlərə görə Ermənistanın cəzasız qalacağını düşünmək də sadələvhlükdür.

Azərbaycan cinayətkarın layiqli cəzasını alması üçün müvafiq addımlar atır. Belə ki, Azərbaycan tərəfindən cari ilin yanvar ayında Avropa İnsan Hüquqları Məhkəməsində Ermənistana qarşı qaldırılan iddiaya əlavə olaraq, yaxın günlərdə Azərbaycan "İrqi ayrıseçkiliyin bütün formalarının ləğvi haqqında" Beynəlxalq Konvensiyanın (ICERD) sistematik şəkildə pozulmasına görə Ermənistanı məsuliyyətə cəlb etmək üçün məhkəməyə müraciət edəcək. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bu xüsusda qeyd edib ki, ərazilərimizin bir hissəsinin Ermənistan tərəfindən qanunsuz işğalına son verildikdən sonra azərbaycanlılara qarşı insan hüquqlarının kobud şəkildə pozulmasına dair faktlar diqqətlə toplanıb və sənədləşdirilib: "Buraya Ermənistanın azərbaycanlıları etnik mənşəyinə görə zor gücünə qovması, işgəncə verməsi, öldürməsi və qəddar rəftar etməsi halları daxildir. Bir milyondan çox azərbaycanlı Ermənistanın təcavüzü nəticəsində evlərindən zorla qovulmuşdur. Azərbaycanın şəhərləri tamamilə yer üzündən silinmişdir. Üçtərəfli bəyannamənin imzalanmasından sonra Ermənistan keçmiş işğal olunmuş ərazilərdə minaların basdırılması vasitəsilə azərbaycanlı məcburi köçkünlərin evlərinə geri dönüşünün qarşısını alaraq və minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina etməklə ICERD-ni pozmağa davam etdi. Biz, Ermənistan tərəfindən ICERD-nin müddəalarının kobud şəkildə pozulması ilə əlaqədar beynəlxalq hüquq çərçivəsində ədaləti təmin edəcəyik".

Təbii ki, beynəlxalq hüquq çərçivəsində ədalətin təmin olunması sonrakı müharibə cinayətlərinin önlənməsi baxımından olduqca mühümdür. Ermənistanın cəzalandırılması baş versə, bu, beynəlxalq hüququn təntənəsi olmaqla yanaşı, mənfi presedentlərin yaranmasının da qarşısını alacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**